










**Son illərdə iqlim dəyişmələri ilə mübarizə qlobal səviyyədə əsas mövzulardan birinə çevrilib. İqlim dəyişmələrinin qarşısını almaq üçün beynəlxalq arenada bir çox təşəbbüslər irəli sürülür. Sözügedən hadisə "yaşıl enerji" erasına keçidi sürətləndirir və ölkələri daha dayanıqlı enerji mənbələrinə yönləndirir. Beləliklə, planetimizin gələcəyini qorumaq üçün "yaşıl iqtisadiyyat" anlayışı qlobal iqtisadi və siyasi gündəmin əsas istiqamətlərindən birinə çevrilib. Qeyd olunduğu kimi, ekoloji problemlərin artması və alternativ enerji mənbələrinə keçid mövzusu dünya birliyinin diqqət yetirdiyi əsas məsələdir. Bu məsələlər təkcə qlobal miqyasda deyil, həm də Azərbaycan və onun iqtisadi-ticari, strateji tərəfdaşları üçün getdikcə daha aktual bir gündəmə çevrilir. "Yaşıl enerji"yə keçid, həm planetimizin qorunması, həm də davamlı inkişafın təmin olunması baxımından qaçılmazdır.**

# "Yaşıl enerji"nin inkişafı sahəsində sinxron fəaliyyət



Azərbaycan üçün "yaşıl enerji"yə keçid yeni iqtisadi transformasiyaların başlanğıcını qoyub. Bu prosesin əsas məqsədi ətraf mühitdə insan fəaliyyəti nəticəsində yaranan mənfi təsirləri minimuma endirməkdir. Lakin "yaşıl enerji"yə keçid müsbət tərəfləri ilə yanaşı, inkişaf etməkdə olan ölkələr üçün müəyyən maliyyə və texnoloji risklər də yaradır. Bu risklərin qarşısını almaq üçün "yaşıl keçid"in məqsədləri aydın şəkildə müəyyən edilməli, yerli, regional və qlobal ehtiyaclar nəzərə alınmalıdır. Həmçinin artan enerji tələbatı və potensial çatışmazlıqlar da qiymətləndirilməlidir. Bütün bunlar, "yaşıl enerji"yə keçidin həm iqtisadi, həm də siyasi aspektlərini əhatə edən real və effektiv bir yol xəritəsinin hazırlanmasını zəruri edir. Azərbaycanın bu sahədə atdığı addımlar isə ölkəmizin dayanıqlı gələcəyini təmin etmək yolunda əhəmiyyətli bir mərhələdir.

COP29 tarixinə düşən vacib hadisələrdən biri də Azərbaycan, Qazaxıstan və Özbəkistan liderləri tərəfindən "Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasıdır. Bu sazişi "yaşıl enerji"yə keçidin konkret yol xəritəsi kimi qiymətləndirmək olar. Bu tarixi saziş eyni milli və dini köklərə malik, oxşar adət-ənənələri, mədəniyyəti və dil birliyini paylaşan üç qardaş ölkə arasında əməkdaşlığın güclənməsi üçün mühüm addımdır.

Dövlət başçısı İlham Əliyev sazişlə bağlı çıxışında bildirib ki, onun imzalanması tarixi hadisədir. "Biz ölkələrimiz arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndiririk və "yaşıl enerji" sahəsində fəal əməkdaşlıq edəcəyik. Həmçinin deyərdim ki, imzaladığımız bugünkü Saziş Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır. Mahiyyət etibarilə Mərkəzi Asiya və Qafqaz regionlarında inteqrasiya prosesləri, nəqliyyat, energetika, ticarətlə bağlı proseslər bu gün deməyə imkan verir ki, bu iki region bir çox məsələlərdə, o cümlədən "yaşıl enerji"nin inkişafı sahəsində sinxron fəaliyyət göstərir. Biz Özbəkistanda, Qazaxıstanda və Azərbaycanda bərpaolunan enerji mənbələrinin yaradılması üzrə artıq əldə edilmiş böyük planlar və nəticələr haqqında bilirik. Yəni biz, belə demək mümkünsə, paralel kursla gedirik və Xəzərin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkəmiz arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlıqdır".

Sazişin məqsədi "yaşıl enerji"yə keçid çərçivəsində çoxşaxəli tərəfdaşlıq üçün əsas istiqamətləri müəyyənləşdirmək və bu sahədə iqtisadi prioritetləri aydınlaşdırmaqdır. Azərbaycan, Qazaxıstan və Özbəkistan üçün bu strateji əməkdaşlıq yalnız enerji sektorunda deyil, həm də dayanıqlı gələcəyin qurulmasında önəmli bir mərhələdir. Bu, üç ölkənin enerji sistemlərinin birləşməsi ilə yanaşı, Orta Dəhliz anlayışının da daha geniş miqyasda həyata keçirilməsidir. Mərkəzi Asiyada istehsal olunan bərpaolunan enerjinin Azərbaycana ixracını təmin edəcək bu yanaşma, bölgələr arasında strateji əməkdaşlığın yeni mərhələsini ifadə edir. Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin birgə səyləri, dayanıqlı inkişaf və ekoloji sabitliyin təmin olunmasında mühüm rol oynayır. Bu birlik həm regional, həm də beynəlxalq səviyyədə əməkdaşlığın güclənməsinə xidmət edir.

Eyni zamanda Azərbaycan Gürcüstan, Bolqarıstan, Rumıniya və Macarıstanla birlikdə Qara dəniz vasitəsilə bərpaolunan "yaşıl enerji"ni Avropa bazarlarına çatdıracaq mühüm bir layihəyə imza atıb. Həmin layihə Azərbaycanın, o cümlədən bütün regionun enerji təhlükəsizliyini və davamlı inkişafını təmin etməyə xidmət edir. Əməkdaşlığın gücləndirilməsi və səylərin əlaqələndirilməsi bu sahədə uğurların açarıdır. Azərbaycanın bu təşəbbüsləri, "yaşıl enerji"nin gələcəyinə olan sadiqliyinin parlaq göstəricisidir.

Göründüyü kimi, Azərbaycan, Qazaxıstan və Özbəkistan kimi Türk Dövlətləri Təşkilatına üzv ölkələr, "yaşıl enerji"yə keçid istiqamətində önəmli addımlar atır. Bu qardaş ölkələr bir çox beynəlxalq məsələlərdə eyni və ya oxşar baxışları ilə seçilir, bu isə onların əməkdaşlıq potensialını daha da artırır. "Yaşıl enerji"yə keçid çərçivəsində atılan bu addımlar, həm iqtisadiyyatların modernizasiyası, həm də dayanıqlı inkişafın təmin olunması baxımından strateji əhəmiyyətə malikdir.

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin xarici siyasətində Azərbaycanla strateji tərəfdaşlıq münasibətləri xüsusi yer tutur. Coğrafi mövqeyi və geosiyasi əhəmiyyəti ilə seçilən Azərbaycan öz növbəsində təşkilatın inkişafı üçün köməyini əsirgəmir. Prezident İlham Əliyev 2024-cü il fevralın 14-də andiçmə mərasimindəki çıxışında deyib ki, TDT Azərbaycan üçün əsas beynəlxalq təşkilatdır. Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının inteqrasiyasına və inkişafına verdiyi töhfələr beynəlxalq aləmə yaxşı məlumdur. Bu il noyabrın 6-da Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər isə Azərbaycanın bu təşkilata nə qədər böyük diqqət və hörmət göstərdiyini bir daha təsdiq etdi.

Prezident İlham Əliyev çıxışında Azərbaycan tərəfindən TDT-yə maliyyə dəstəyi ayrılacağını bəyan etdi və Təşkilatın Katibliyinə 2 milyon, Ağsaqqallar Şurasına isə 100 min ABŞ dolları məbləğində yardımın nəzərdə tutulduğunu vurğuladı. Bu addımların Təşkilatın potensialını daha da artıracağına inandığını ifadə edən dövlət başçısı Azərbaycanın təşəbbüslərinin TDT-nin gələcək inkişafına güclü təsir göstərəcəyini diqqətə çatdırdı. Bu cür təşəbbüslər Azərbaycanın qardaş türk dövlətləri ilə əməkdaşlığını gücləndirmək, ortaq tarix və mədəniyyətə əsaslanan bağları daha da möhkəmləndirmək istiqamətində göstərdiyi sadiqliyin bariz nümunəsidir. Azərbaycanın dəstəyi yalnız iqtisadi deyil, həm də strateji və mənəvi əhəmiyyət daşıyır. Azərbaycan, Qazaxıstan və Özbəkistan kimi qardaş ölkələr təkcə TDT çərçivəsində deyil, həm də BMT, MDB, ATƏT və Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlarda milli maraqlara əsaslanan əməkdaşlıq əlaqələrini inkişaf etdirir.



**Musa BAĞIRLI,**
**"Respublika".**